Paritet
www. paritet.az
İctimai-siyasi qəzet №24 (1467) 11-12 MART 2010-cu il Qiymәti 40 qәpik



*• "ELS" Müstəqil Araşdırmalar Mərkəzi dəmir yolunda sərnişindaşıma sisteminin təkmilləşdirilməsi və qadınlar üçün ayrıca kupelərin təşkil olunması təklifi ilə çıxış edib. Mərkəzdən bildirilib ki, son illər bir çox ölkədə sərnişinlərin cinsindən asılı olaraq kupelərdə ayrı yerləşdirilməsi tətbiq edilir. Azərbaycanda isə ictimai nəqliyyatın bütün növlərində kişi və qadınlar belə seçim imkanından məhrumdurlar.*



# Qadınlar üçün kupe

## *Dəmir yolunda qadınlar üçün ayrıca kupelərin təşkil olunması təklif edilir*

Bu isə onlar üçün səfərlər zamanı müəyyən problemlər yaradır: "Qatarlara biletlərin qeydiyyat və satışı elə təşkil olunub ki, bilet alınan zaman sərnişin yol yoldaşları haqqında ən lazımi və elementar məlumatı belə əldə etmək iqtidarında deyil. Əgər sərnişin, xüsusən də qadınlar, yol yoldaşlarının kim olacağından asılı olaraq (kişi və yaxud qadın) kupeni seçmək istəsələr, kassirlər onlara heç bir köməklik göstərə bilməzlər, çünki onların istifadə etdikləri elektron proqramda biletləri almış sərnişinlər barədə məlumat yoxdur. Ona görə də biletin alınması kor-korana baş verir. Nəticədə qadın kupedə üç kişi ilə birgə səfər etməli ola bilər. Bu, həm onun üçün, həm də kişilərin özləri üçün müəyyən narahatlıqlar yaradır". Eyni problem SV vaqonlarının sərnişinləri üçün də yaranır: "Bu vaqona bilet alan qadın kiminlə kupedə təkbaşına qalacağını bilmir və çox vaxt bu, onun ailəsində ciddi müzakirə obyektinə çevrilir. Vaqonlarda isə tez-tez qadın sərnişinlərin axtarışı və yerlərin dəyişdirilməsinə səy göstərilməsi halları müşahidə olunur".

"ELS" sözügedən problemlə bağlı sərnişinlər arasında ekspress-sorğu da keçirib. Sorğuya cavab verən qadınların 92,4 faizi qadınlar üçün xüsusi kupelərin ayrılmasını dəstəkləyib, 3,1 faizi tək səyahət etmədiklərini bildirib, 3,4 faizi cavab verməyə çətinlik çəkib, yalnız 1,1 faizi onlar üçün fərqi olmadığını bildiriblər. Sorğuya cavab verən kişilərin 76,4 faizi ayrı qadın kupelərinin təşkil edilməsini, 9,2 faizi isə kişi kupelərinin təşkilini təklif edib, 6,1 faizi vəziyyəti qiymətləndirə bilməyib, 8,3 faizi isə onun üçün heç bir fərq olmadığını söyləyib. Ayrı kupelərin təşkilinin zəruriliyini sorğuya cavab verənlər sərnişinin rahatlığı (53,2 faizi) və təhlükəsizliyi (16,1 faiz), milli adətlərimiz və islam dəyərlərinə uyğun olması (25,8 faizi) və başqa səbəblərlə əsaslandırıblar.

Mərkəz Dəmir Yol İdarəsinin Sərnişin Daşıma İstehsalat Birliyinə də müraciət edərək qadın kupelərinin təşkili məsələsinin gündəmdə olub-olmaması ilə maraqlanıb. Birlikdən bu məsələnin indiyədək müzakirə subyekti olmadığını və sərnişinlərin cinsi ilə bağlı qeydiyyatın aparılmasının nəzərdə tutulmadığını bildiriblər.